# Dünyanın ən gənc universitetləri

Oruc MUSTAFAYEV

## Quacquarelli Symonds növbəti reytinqi açıqlayıb



Böyük Britaniyanın təhsil sahəsində ixtisaslaşmış Quacquarelli Symonds (QS) agentliyi 2017-2018-ci illər üzrə dünyanın yaşı 50-dən çox olmayan ən yaxşı universitetlərinin növbəti reytinq cədvəlini açıqlayıb. Öz ölkələrində 50 il əvvəl yaradılmış ən gənc universitetlərin reytinq cədvəlinə fasiləsiz olaraq Sinqapurun Nanyanq Texnologiya Universiteti başçılıq edir. İlk 10-luqda Honkonq Elm və Texnologiya Universiteti, Cənubi Koreya Qabaqcıl Elm və Texnologiyalar İnstitutu (KAIST), Honkonq Şəhər Universiteti, Cənubi Koreyanın Pohanq Elm və Texnologiyalar Universiteti, Honkonq Politexnik Universiteti (Honkonq), Aalto Universiteti (Finlandiya), Sidney Texnologiya Universiteti (Avstraliya), Paris Centrale Supelec Universiteti (Fransa), Madrid Muxtar Universiteti (İspaniya) yer alıblar.

Bütövlükdə 100 ali məktəbin təmsil olunduğu beynəlxalq sıralamada Asiya universitetləri üstün mövqeyə malikdir. Türkiyə sıralamada 3 ali məktəblə - Bilkənt, Koç və Sabançı universitetləri ilə təmsil olunub. Reytinqə postsovet ölkələrindən yalnız Qazaxıstanın L.Qumilyov adına Avrasiya Milli Universiteti (35-ci yer) və Rusiyanın Elmi-Tədqiqat Ali İqtisadiyyat Məktəbi (48-ci yer) daxil ola bilib. Sıralamada Avstraliya 16 universitetlə təmsil olunub.

Xatırladaq ki, QS 2012-ci ildən dünyanın ən "gənc" universitetlərinin reytinq sıralamasını tərtib edir. Reytinqin məqsədi ali təhsil məkanında ənənəvi rəqiblərlə rəqabətə girməkdən çəkinməyən gənc, dinamik ali məktəblərin inkişaf dinamikasını izləməkdir.

Reytinq tərtib olunarkən universitetlər 6 kriteriya üzrə qiymətləndirilib. Onların arasında ali məktəblərin akademik mühitdə nüfuzu (40%), işə götürənlər tərəfindən qiymətləndirmə (10%), müəllimlərin və tələbələrin elmi işlərindən sitatgətirilmə (20%), əcnəbi müəllimlərin sayı (5 faiz), əcnəbi tələbələrin sayı (5 faiz) kimi amillər nəzərə alınır. Reytinqlə daha ətraflı www.topuniversities.com/university-rankings/top-50-under-50/2018 səhifəsindən tanış olmaq olar.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə |
|---|---|---|
| 1. | Nanyang Technological University, Singapore (NTU) | Sinqapur |
| 2. | The Hong Kong University of Science and Technology | Honkonq |
| 3. | KAIST - Korea Advanced Institute of Science & Technology | Cənubi Koreya |
| 4. | City University of Hong Kong | Honkonq |
| 5. | Pohang University of Science And Technology | Cənubi Koreya |
| 6. | The Hong Kong Polytechnic University | Honkonq |
| 7. | Aalto University | Finlandiya |
| 8. | University of Technology Sydney | Avstraliya |
| 9. | Centrale Supélec | Fransa |
| 10. | Universidad Autónoma de Madrid | İspaniya |
| 11. | Scuola Superiore Sant'Anna Pisa di Studi Universitari e di Perfezionamento | İtaliya |
| 12. | Universitat Autònoma de Barcelona | İspaniya |
| 13. | Maastricht University | Niderland |
| 14. | University of Antwerp | Belçika |
| 15. | Universiti Putra Malaysia (UPM) | Malayziya |
| 16. | Universiti Kebangsaan Malaysia (UKM) | Malayziya |
| 17. | University of Wollongong | Avstraliya |
| =18. | Queensland University of Technology (QUT) | Avstraliya |
| =18. | RMIT University | Avstraliya |
| 20. | University of Tsukuba | Yaponiya |
| 21. | Universiti Teknologi Malaysia | Malayziya |
| 22 | Curtin University | Avstraliya |
| =23. | National Taiwan University of Science and Technology | Tayvan |
| =23. | Universiti Sains Malaysia (USM) | Malayziya |
| 25. | Universitat Politècnica de Catalunya | İspaniya |
| 26. | University of South Australia | Avstraliya |
| 27. | Universidad Carlos III de Madrid (UC3M) | İspaniya |
| 28. | Linköping University | İsveç |
| 29. | Deakin University | Avstraliya |
| 30. | Universitat Pompeu Fabra | İspaniya |
| 31. | Hong Kong Baptist University | Honkonq |
| 32. | Griffith University | Avstraliya |
| 33. | National Yang Ming University | Tayvan |
| 34. | Universidad Austral | Avstraliya |
| 35. | L.N. Gumilyov Eurasian National University (ENU) | Qazaxıstan |
| 36. | Gwangju Institute of Science and Technology (GIST) | Cənubi Koreya |
| =37. | Universiti Brunei Darussalam (UBD) | Bruney |
| =37. | Qatar University | Qətər |
| 39. | Ben Gurion University of The Negev | İsrail |
| 40. | Université Paris Dauphine | Fransa |
| =41. | Oxford Brookes University | Birləşmiş Krallıq |
| =41. | Universidade Nova de Lisboa | Portuqaliya |
| =43. | James Cook University | Avstraliya |
| =43. | University of Tromsø The Arctic University of Norway | Norveç |
| 45. | Universitat Politècnica de València | İspaniya |
| 46. | Aalborg University | Danimarka |
| 47. | Tampere University of Technology | Finlandiya |
| 48. | National Research University Higher School of Economics (HSE, Moscow) | Rusiya |
| 49. | National Sun Yat-sen University | Tayvan |
| 50. | United Arab Emirates University | Birləşmiş Ərəb Əmirlikləri |
| 51-60. | Dublin City University | İrlandiya |
| 51-60. | American University of Sharjah | Birləşmiş Ərəb Əmirlikləri |
| 51-60. | Arabian Gulf University | Bəhreyn |
| 51-60. | Bilkent University | Türkiyə |
| 51-60. | Shanghai University | Çin |
| 51-60. | Swinburne University of Technology | Avstraliya |
| 51-60. | University of Texas Dallas | ABŞ |
| 51-60. | Bond University | Avstraliya |
| 51-60. | Concordia University | Kanada |
| 51-60. | Koç University | Türkiyə |
| 61-70. | National University of Sciences And Technology (NUST) Islamabad | Pakistan |
| 61-70. | Universidad de Palermo (UP) | Argentina |
| 61-70. | Auckland University of Technology (AUT) | Yeni Zelandiya |
| 61-70. | Singapore Management University | Sinqapur |
| 61-70. | Khalifa University | Birləşmiş Ərəb Əmirlikləri |
| 61-70. | Sultan Qaboos University | Oman |
| 61-70. | University of Eastern Finland | Finlandiya |
| 61-70. | Sabanci University | Türkiyə |
| 61-70. | University of Rome "Tor Vergata" | İtaliya |
| 61-70. | King Khalid University | Səudiyyə Ərəbistanı |
| 71-80. | Chang Gung University | Tayvan |
| 71-80. | Universität Bremen | Almaniya |
| 71-80. | Politécnica de Madrid | İspaniya |
| 71-80. | UNESP | Braziliya |
| 71-80. | Indian Institute of Technology Guwahati (IITG) | Hindistan |
| 71-80. | Kingston University, London | Birləşmiş Krallıq |
| 71-80. | Murdoch University | Avstraliya |
| 71-80. | Universidad de Montevideo | Uruqvay |
| 71-80. | Université du Québec | Kanada |
| 71-80. | University of Limerick | İrlandiya |
| 81-90. | University of Macau | Makau, Çin |
| 81-90. | Coventry University | Birləşmiş Krallıq |
| 81-90. | Universidad de Alcalá | İspaniya |
| 81-90. | University of Bayreuth | Almaniya |
| 81-90. | University of Canberra | Avstraliya |
| 81-90. | University of Ulsan | Cənubi Koreya |
| 81-90. | Western Sydney University | Avstraliya |
| 81-90. | American University in Dubai | Birləşmiş Ərəb Əmirlikləri |
| 81-90. | Central Queensland University | Avstraliya |
| 81-90. | Jordan University of Science & Technology | İordaniya |
| 91-100. | TU Dortmund University | Almaniya |
| 91-100. | Universidad de San Andrés - UdeSA | Argentina |
| 91-100. | Universität Duisburg-Essen | Almaniya |
| 91-100. | Universiti Teknologi Petronas (Petronas) | Malayziya |
| 91-100. | University of Hyderabad | Hindistan |
| 91-100. | University of Johannesburg | Cənubi Afrika Respublikası |
| 91-100. | University of Kufa | İraq |
| 91-100. | University of Portsmouth | Birləşmiş Krallıq |
| 91-100. | Ulster University | Birləşmiş Krallıq |
| 91-100. | Ajou University | Cənubi Koreya |